**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**POLAD RƏSUL OĞLU XƏLİLOV**

# BAKI NEFT SƏNAYEÇİLƏRİ QURULTAYININ SƏHİYYƏ VƏ MƏDƏNİ-MAARİF SAHƏLƏRİNDƏ FƏALİYYƏTİ

İxtisas: 5503.02 – Vətən tarixi

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2015**

*Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın yeni tarixi» şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
Tarix üzrə elmlər doktoru İ.S.Bağırova

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, professor K.K.Şükürov

Tarix üzrə fəlsəfə doktoru F.R.Cabbarov

**Aparıcı müəssisə:** Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası

Müdafiə "_23___" _09____ 2015-ci il saat "___" da Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcələri almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: 1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «____» _________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi,**
**Tarix üzrə fəlsəfə doktoru C.Ə.Bəhramov**

## I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** XIX əsrin ikinci yarısı – XX əsrin əvvəli Azərbaycan tarixində xüsusi mərhələ təşkil edir. Milli neft sənayesinin yaranması, milli kapitalın formalaşması, xarici kapitalın, xüsusilə də Rusiya və Avropa neft şirkətlərinin burada təmsil olunmaları, çar Rusiyasının müstəmləkəçilik siyasəti müasir Azərbaycan tarixşünaslığı üçün tədqiqi elmi və siyasi cəhətdən aktual hesab olunan problemlərdən sayılır.

XIX əsrin sonunda milli və xarici kapital nümayəndələrinin yaratdıqları Bakı Neft Sənayeçiləri Qurultayının fəaliyyəti müasir dövrdə çox böyük elmi aktuallıq kəsb edir. Şimali Azərbaycanda neft hasilatının sənaye üsulu ilə sürətli inkişaf etdiyi, infrastrukturların təşəkkül tapdığı, Bakının neft mərkəzi kimi şöhrətinin artdığı bir dövrdə tanınmış iri inhisar birliklərinin, şirkətlərinin, ayrı-ayrı sahibkarların müəssisələrində çalışan fəhlə və qulluqçu ailələrinə onların təsis etdikləri təşkilatları tərəfindən göstərilən bir sıra xidmətlərinin hansı səviyyədə olması, o cümlədən uşaqlarının ibtidai təhsilə olan tələbatlarının nə dərəcədə ödənilməsi kimi bu və ya digər məsələlərinin öyrənilməsi maraq doğurur.

1994-cü ildə ümummilli lider Heydər Əliyevin iradə və qətiyyəti sayəsində "Əsrin müqaviləsi" kimi möhtəşəm bir beynəlxalq sənəd imzalandı. Bu gün təməli Heydər Əliyev tərəfindən qoyulmuş neft strategiyasının uğurla həyata keçirilməsi sayəsində respublikamıza daxil olan külli miqdarda valyutanın hesabına digər sahələrlə yanaşı olaraq, səhiyyə və mədəni-maarif sahələrinin inkişafına da diqqət artırılmışdır. Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafının proqramlarına uyğun olaraq yeni xəstəxana-diaqnostika mərkəzləri, yüzlərcə məktəb yaradılıb, bir sözlə, digər sahələrlə bərabər olaraq, səhiyyə və mədəni-maarif sahələrinin də yeni infrastrukturunun qurulması işi həyata keçirilmişdir. Bu baxımdan Bakı Neft Sənayeçiləri Qurultayının səhiyyə və mədəni maarif sahələrindəki fəaliyyətinin tədqiqi tarixi təcrübə baxımından da böyük aktuallıq kəsb edir.

Azərbaycanın ən qiymətli təbii sərvəti olan neftlə bağlı xarici kapitalın bura nüfuz etməsinin tarixi XIX əsrin son rübünə təsadüf edir. Məhz bu dövrdə Bakı sənaye rayonunda fəaliyyət göstərən

müxtəlif xırda, orta və iri neft sənayesi firmalarının daxil olduğu, sahə sahibkarlıq təşkilatı strukturuna malik olan Bakı Neft Sənayeçiləri Qurultayı təsis olunmuşdur.

Bakı Neft Sənayeçiləri Qurultayının əsas vəzifəsi neft işi ilə məşğul olmaq olsa da, könüllü olaraq Bakı sənaye rayonunun təsərrüfat sahələrinə də diqqət ayırmış, neft sənayesi sahəsində çalışan fəhlələrin və onların uşaqlarının tibbi-sanitariya yardımı ilə təmin olunmaları, ibtidai təhsilə olan tələbatlarının ödənilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir.

Qurultay təşkilatının öz funksiyalarına və vəzifələrinə daxil olmayan sahələrdə də fəaliyyət göstərməsi (məsələn, təhsil, mədəniyyət, səhiyyə və s.) o zamankı mürəkkəb bir dövr üçün çox mühüm əhəmiyyətə malik idi. Lakin Qurultay çar hökuməti qarşısında fəhlələrin hüquqlarını müdafiə etmir, əksinə, fəhlə hərəkatının yatırılması üçün hökumətin əlində bir alət rolunu oynayırdı. Fəhlə məsələsinin işıqlandırılması dissertasiya işinin aktuallığını daha da artırır.

Beləliklə, təqdim olunan dissertasiyada Bakı Neft Sənayeçiləri Qurultayının Bakı sənaye rayonunun səhiyyə və mədəni-maarif sahələrində fəaliyyətinin tədqiqi nəzərdə tutulmuşdur. Bu zaman sözügedən problemin iki süjet xətti qeyd olunmalıdır: 1) Bakı Neft Sənayeçiləri Qurultayının çar hökumətinin ucqarlarda həyata keçirdiyi milli-müstəmləkəçilik siyasətinə xidmət etməsi 2) nəhəng Bakı sənaye rayonunda fəhlələrin və onların uşaqlarının sağlamlığının mühafizə olunması, ibtidai təhsilə yiyələnmələri və digər sosial tələbatlarının ödənilməsinin demək olar ki, təkcə Bakı Neft Sənayeçiləri Qurultayının ümidinə qalması.

**Tədqiqatın xronoloji çərçivəsi:** Bəhs etdiyimiz Bakı Neft Sənayeçiləri Qurultayının fəaliyyəti xronoloji baxımdan mahiyyətcə bir-birindən fərqlənən iki dövrə ayrılır: 1) 1884-cü ildən 1893-cü ilə qədər olan dövrdə hələ neft rüsumu tətbiq olunmadığından, tələb olunan vəsaitin çatışmaması səbəbindən Bakı Neft Sənayeçiləri Qurultayı yalnız müvəkkilik fəaliyyəti ilə məşğul olmuş, səhiyyə və mədəni-maarif sahələrinə tələb olunan səviyyədə diqqət ayıra bilməmişdir 2) 1893-cü ildən 1917-ci ilə qədər olan dövrdə neft rüsumundan toplanılan vergilərlə öz büdcə gəlirlərini artıran Bakı Neft Sənayeçiləri Qurultayı artıq Bakı sənaye rayonunun təsərrüfat sahəsinin də, o

cümlədən səhiyyə və mədəni-maarif sahələrinin inkişafını bacardığı qədər təmin edə bilmişdir. Lakin Bakı Neft Sənayeçiləri Qurultayının yaranmasını şərtləndirən amillərin araşdırılması və təşkilatın faktiki olaraq 1920-ci ilə qədər fəaliyyət göstərməsi səbəbindən tədqiqat işi xronoloji çərçivədən bir qədər kənara çıxmışdır.

**Mövzunun öyrənilmə səviyyəsi**: Azərbaycan tarixşünaslığında bəhs olunan mövzu ayrı-ayrı aspekt və süjetlərin işıqlandırılması baxımından tədqiqatçıların diqqətini cəlb etsə də, Bakı Neft Sənayeçiləri Qurultayının səhiyyə və mədəni-maarif sahələrindəki fəaliyyətinə həsr olunmuş xüsusi elmi əsər yoxdur. Bakı Neft Sənayeçiləri Qurultayının fəaliyyəti 36 illik uzun bir dövrü əhatə etdiyindən, həmin dövrün bir sıra məsələləri ilə məşğul olan tədqiqatçıların əsərlərində qurultay təşkilatının fəaliyyətinə toxunulur.

Bakı Neft Sənayeçiləri Qurultayının səhiyyə sahəsindəki fəaliyyəti barədə məlumatlara daha çox Oktyabr çevrilişindən (1917) əvvəlki tarixşünaslıqda rast gəlirik. Məsələn, Q.E.Startsevin əsərində [1] Qurultayın tibb müəssisələri tərəfindən neft sənayesi fəhlələrinə göstərilən tibbi-sanitariya yardımı və Bakı sənaye rayonunun sanitariya sahəsindəki fəaliyyəti barədə çox geniş məlumatlar var. Göstərilən müəllif Bakı Neft Sənayeçiləri Qurultayının fəaliyyət göstərdiyi dövrdə yaşayıb-yaratdığı üçün hadisələrin bilavasitə olaraq yaxından iştirakçısı olmuş və bu da ona öz əsərində Qurultayın səhiyyə sahəsindəki fəaliyyətini daha dəqiq faktlarla işıqlandırmağa imkan vermişdir.

Göstərilən problemlə bağlı sovet dövrü tarixşünaslığında İ.V.Striqunov, F.M.Vəkilov, B.Y.Axundov, K.A.Pajitnovun əsərlərini [2] qeyd

---

[1] Старцев Г.Е. Бакинская нефтяная промышленность. Историко-статистический очерк. Баку: Типография «Арор», 1901, 88 с.

[2] Стригунов И.В. Из истории формирования Бакинского пролетариата (70-90-е годы XIX в.). Баку: Издательство Академии Наук Азербайджанской ССР, 1960, 289 с; Векилов Ф.М. О здравоохранении в Азербайджане. Баку: Азернешр, 1962, 68 с; Ахундов Б.Ю. К вопросу об иностранном капитале в дореволюционной бакинской нефтяной промышленности // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. №4, aprel, 1953. Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, s. 77-99; Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной бакинской нефтяной промышленности. М: Издательство Социально-Экономической Литературы, 1959, 296 с; Ахун-

etmək olar. İ.V.Striqunov sovet ideologiyasının təsiri altında öz əsərində kapitalist münasibətlərinin inkişaf etdiyi çar Rusiyası müstəmləkəçilik siyasətinin icraçısı funksiyasını yerinə yetirən Qurultayın fəhlələrə qarşı zidd siyasətinə yer verməsə də, onun əsəri Qurultayın tibb müəssisələri tərəfindən neft sənayesi fəhlələrinə göstərilən tibbi-sanitariya yardımı, Qurultay tərəfindən məktəblərin təşkil olunması, təşkilatın fəhlə qəsəbələrinin tikilməsi üçün təşəbbüs göstərməsi və Bakı sənaye rayonunun sanitariya vəziyyəti barədə məlumatlarla zəngindir. K.A.Pajitnovun əsərində isə daha çox fəhlə qəsəbələri məsələsinə yer verilmişdir.

Bakı Neft Sənayeçiləri Qurultayının səhiyyə və mədəni-maarif sahələrində fəaliyyəti barədə məlumatlara daha çox XIX əsrin sonları və XX əsrin əvvəlləri xronoloji çərçivəsi üzrə neft işi, təhsillə bağlı problemlər və kitabxanaçılıq işi mövzularını araşdıran tədqiqatçıların əsərlərində rast gəlirik. Bu baxımdan E.B.Muradəliyevanın əsəri[1] diqqəti cəlb edir. Müəllifin Şimali Azərbaycan neft sənayesinin tarixinə həsr etdiyi tədqiqat işində qurultay təşkilatının səhiyyə, təhsil sahələrindəki fəaliyyətindən, onun yaranması tarixindən, qurultaylarda keçirilən səslərin hesablanması prosesində iri firmaların dominantlıq etməsi, Qurultayın strukturu və s. barədə çox geniş məlumatlar verilir. E.B.Muradəliyeva öz əsərində Qurultayın fəaliyyətini öz xarakterinə və ölçülərinə görə şəhər və zemstvo təsərrüfatlarını idarə edən müəssisələrin fəaliyyətinə yaxın olduğunu göstərir.

Mərhum N.A.Tahirzadənin 2009-cu ildə nəşr olunan əsərində[2] Bakı Neft Sənayeçiləri Qurultayının təhsil və kitabxanaların təşkil

---

дов Б.Ю. Развитие бакинской нефтяной промышленности после отмены откупной системы // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. №10, oktyabr, 1949, Bakı: Azərbaycan SSR EA Nəşriyyatı, s. 63-91; Пажитнов К.А. Очерки по истории бакинской нефтедобывающей промышленности (с конца XVII века до Великой Октябрьской Социалистической Революции). М-Л.: Государственное Научно-Техническое Издательство Нефтяной и Горно-Топливной Литературы, 1940, 190 с.

[1] Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, 256 с.

[2] Таирзаде Н.А. Из истории Азербайджанской интеллигенции. Баку: «Адилоглы», 2009, 396 с.

olunması sahələrindəki fəaliyyəti öz əksini tapıb. Bu əsərdə təqdirəlayiq hal ondan ibarətdir ki, müəllif Qurultayın təkcə məktəblərin təşkil olunması sahəsindəki fəaliyyətindən danışmır, eyni zamanda, təşkilat tərəfindən fəhlələr üçün axşam kursları və kitabxanaların açılması işini də göstərir.

Ümumiyyətlə, müasir dövr tarixşünaslığında Z.S.Eminova, E.B.Muradəliyeva, İ.S.Bağırova, Z.A.Qafarova, M.Ə.Ismayılov və M.C.İbrahimovun, A.S.Quliyeva və F.A.Mollazadənin əsərləri[1] Qurultayın səhiyyə sahəsindəki fəaliyyətini işıqlandırmaq baxımından iki qismə ayırmaq olar. 1-ci qrupa daxil olan müəlliflər, məsələn, E.B.Muradəliyeva, Z.S.Eminova, A.S.Quliyeva və F.A.Mollazadənin əsərlərində Qurultayın yalnız səhiyyə sahəsindəki fəaliyyəti barədə məlumatlar var. Onların arasında E.B.Muradəliyevanın əsəri daha geniş məlumatlarla zəngindir. 2-ci qrupa daxil olan müəlliflər, məsələn, İ.S.Bağırova, Z.A.Qafarova, M.Ə.İsmayılov və M.C.İbrahimovun əsərlərində Qurultayın səhiyyə sahəsindəki fəaliyyəti barədə məlumatlar olmasa da, fəhlə qəsəbələrinin tikilməsi, fəhlə tətil hərəkatının geniş vüsət alması, tibbi-sanitariya yardımı ilə təchiz olunma baxımından fəhlələrin vəziyyəti və s. barədə geniş məlumatlara rast gəlirik.

Bakı Neft Sənayeçiləri Qurultayının siyasi fəaliyyəti barədə məlumatlar daha çox Q.E.Startsev, E.B.Muradəliyeva, S.İ.Gülüşəmbərov, B.Y.Axundov, S.S.Əliyarov, M.C.İbrahimovun əsərlərində [2]

---

[1] Eminova Z.S. XIX-XX əsrin əvvəllərində Azərbaycanda səhiyyənin tarixi: T.e.n. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. Bakı, 2004, 27 s; Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, 256 c; Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века (1900-1917). Баку: «Елм», 1997, 336 с; Кафарова З.А. Формирование рабочего класса Азербайджана. Баку: Nurlan, 2005, 175 с; İsmayılov M.Ə., İbrahimov M.C. Azərbaycan neft sənayesinin inqilabaqədərki tarixi. Bakı: Elm, 1991, 284 s; Кулиева А.С., Моллазаде Ф.А. Градостроительная организация спортивно-медицинского обслуживания города Баку. Баку: Элм, 2002, 244 с.

[2] Старцев Г.Е. Бакинская нефтяная промышленность. Историко-статистический очерк. Баку: Типография «Арор», 1901, 88 с; Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, 256 с; Гулишамбаров С.И. Обзор фабрик и заводов бакинской губернии. Тифлис: Типография канцелярии Главноначальствуюшего гражданскою

işıqlandırılıb. Bu əsərlərdə Bakı Neft Sənayeçiləri Qurultayının yaranması tarixi, qurultaylarda senz sisteminin tətbiq olunması və əsasən iri firmaların dominantlıq etməsi, Birinci Dünya müharibəsi illərində Qurultayın siyasi fəaliyyəti və s. məlumatlar əks olunub.

Bundan başqa, 1998-2003-cü illərdə nəşr olunan yeddi cildlik "Azərbaycan tarixi" fundamental əsərində Bakı Neft Sənayeçiləri Qurultayının həm siyasi fəaliyyətinə, həm də təhsil sahəsində həyata keçirdiyi tədbirlərə dair dəqiq faktlara və məlumatlara rast gəlirik.

Beləliklə, mövcud tarixi ədəbiyyatın icmalı söyləməyə imkan verir ki, Bakı Neft Sənayeçiləri Qurultayının səhiyyə və mədəni-maarif sahələrindəki fəaliyyətinin tarixi indiyə qədər xüsusi olaraq araşdırılmamışdır.

**Tədqiqatın mənbə bazası:** Əsərin mənbə əsasını aşağıdakı arxivlərin sənəd və materialları təşkil edir:

Azərbaycan Respublikasının Dövlət Tarix Arxivinin (ARDTA) fondları: 46 (Bakı şəhər rəisliyinin dəftərxanası), 309 (Bakı-Dağıstan xalq məktəbləri müdiriyyəti), 389 (Bakı şəhər idarəsi), 532 (Bakı neft sənayeçiləri qurultayı Şurası), 798 (Nobel qardaşları neft istehsalı birliyinin Bakı şöbəsi).

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivinin (ARPİİSSA) 276-cı (Azərbaycanda inqilabi hərəkatın tarixinə dair sənədlər) fondu.

ARDTA-nin fondlarında Bakı Neft Sənayeçiləri Qurultayının büdcə xərclərinin sərf olunması, səhiyyə və mədəni-maarif sahələrindəki fəaliyyəti, xüsusilə qurultay Şurası məktəblərinin təşkil olunması, qurultaylarda keçirilən səsvermə prosesində xırda, orta və iri firmaların malik olduqları səslərin miqdarı, qurultay Şurasının Sankt-Peterburq şəhərinə nümayəndəsinin təyin olunması məsələsi və s. barədə məlumatlar əks olunub.

---

частью на Кавказе, 1890, 278 с; Ахундов Б.Ю. Монополистический капитал в дореволюционной бакинской нефтяной промышленности. М: Издательство Социально-Экономической Литературы, 1959, 296 с; Алияров С.С. Нефтяные монополии в Азербайджане в период первой мировой войны. Баку: Издание АГУ, 1974, 232 с; Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку: «Элм», 1984, 240 с.

ARPİİSSA-nin yuxarıda göstərilən fondunda XX əsrin əvvəllərində Bakı sənaye rayonunda baş verən tətil hərəkatında fəhlələrin qurultay Şurası qarşısında irəli sürdüyü tələblər və digər məsələlər öz əksini tapıb.

İstifadə olunmuş mənbələrin digər mühüm qrupunu bəhs olunan dövrdə işıq üzü görmüş dövri mətbuat təşkil edir. Bu sıradan «Kaspi» və «Neftyanoye delo» mətbu orqanlarını göstərmək olar. Həm də onu bildirək ki, «Neftyanoye delo» qurultay Şurasının orqanı idi. Bu mətbuat orqanlarında tədqiq olunan mövzu ilə bağlı müxtəlif səpkili yazılara rast gəlirik. Bundan başqa tədqiqat işində Bakı Neft Sənayeçiləri Qurultayının əsərlərindən, Qurultayın büdcə gəlirləri və xərcləri layihələrindən, Qurultay müəssisələrinin təftiş olunması üzrə protokollardan, qurultay Şurasının maliyyə-təftiş komissiyasının Bakı neft sənayeçiləri qurultaylarına təqdim etdiyi hesabatları və məruzələrindən, Bakı neft sənayeçiləri qurultaylarının qətnamələrindən, Qurultayın Bakı şəhər rəisliyi neft işləri üzrə İdarəsində təmsil olunan nümayəndələrinin hesabatlarından və təhsil sahəsində fəaliyyətinə dair İcmaldan da istifadə olunub. Bu mənbələrdə Bakı Neft Sənayeçiləri Qurultayının səhiyyə və mədəni maarif sahələrindəki fəaliyyəti ilə bağlı olan maraqlı faktlara rast gəlmək olar.

Mövzunun tədqiqində 1961 və 1973-cü illərdə nəşr olunan iki cildlik «Монополистический капитал в нефтяной промышленности России» adlı sənədlər toplusuna[1] baxılmışdır. Adı çəkilən topluda Qurultay və onun şurasının fəaliyyətinə dair dəyərli sənəd və materiallar var ki, tədqiqatımızda onlardan kifayət qədər istifadə olunmuşdur.

Beləliklə, son dərəcə zəngin faktiki materiallardan istifadə olunmuş, onların müqayisəli və hərtərəfli təhlili verilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiyada istifadə olunan elmi ədəbiyyatın yuxarıda verilən qısa xülasəsi Bakı Neft

[1] Монополистический капитал в нефтяной промышленности России (1883-1914). Документы и материалы. М-Л: Издательство Академии Наук СССР, 1961, 796 с; Монополистический капитал в нефтяной промышленности России (1914-1917). Документы и материалы. Л.: Издательство «Наука», 1973, 552 с.

Sənayeçiləri Qurultayının səhiyyə və mədəni-maarif fəaliyyətində qeyd etdiyimiz hər iki süjet xəttini ehtiva etməklə kompleks şəkildə öyrənilməsi zərurətindən xəbər verir. Təqdim olunan əsər bu sahədə mövcud boşluğu qismən də olsa doldurmaq məqsədini güdür. Qarşıya qoyulan məqsəd aşağıdakı vəzifələrin həllini şərtləndirir:

- Bakı Neft Sənayeçiləri Qurultayının yaranmasını şərtləndirən amilləri təhlil etmək, qurultaylarda iri firmaların hegemon rola malik olmalarının ideoloji köklərini açmaq.
- XX əsrin əvvəllərində Bakı sənaye rayonunda baş verən fəhlələrin tətil hərəkatının gedişini təhlil etmək, çar hökumətinin fəhlə siyasətində Bakı Neft Sənayeçiləri Qurultayı amilini açıb göstərmək.
- Bakı sənaye rayonu fəhlələrinin və onların uşaqlarının ibtidai təhsilə yiyələnmələri istiqamətində Bakı Neft Sənayeçiləri Qurultayının həyata keçirdiyi tədbirlərin böyük əhəmiyyət daşıdığının mahiyyətini açmaq.
- Bakı Neft Sənayeçiləri Qurultayının mədən-zavod rayonu fəhlələrinin sağlamlığının mühafizə olunması sahəsindəki rolunu izah etmək.
- Qurultay məktəblərində, eləcə də Bakı sənaye rayonunun digər məktəblərində azərbaycanlıların təhsilə yiyələnmələri istiqamətində qarşılaşdıqları çətinliklərin çar hökumətinin milli-müstəmləkəçilik və dini amillərlə bağlı izahını vermək.
- Bakı Neft sənayeçiləri Qurultayının Bakı sənaye rayonunda həyata keçirdiyi mədəni tədbirlərinin fəhlələrin və onların uşaqlarının dünyagörüşünün formalaşmasında, mənəvi dünyasının zənginləşməsində oynadığı rolu izah etmək.
- Bakı sənaye rayonunda antisanitariya şəraitinə qarşı aparılan mübarizə tədbirlərində Bakı Neft Sənayeçiləri Qurultayının rolunu izah etmək, çar hökumətinin bu sahəyə qarşı etinasız münasibətinin siyasi səbəblərini təhlil etmək.

**Dissertasiya işinin metodoloji əsası:** Tədqiq etdiyimiz əsərdə ənənəvi ümumelmi, məntiqi və konkret tarixi (tarixi genetik, tarixi-müqayisəli, tarixi-tipoloji) metodlarla yanaşı, yuxarıda göstərilən yeni elmi yanaşmalara da müəyyən mənada müraciət edilmiş, öyrənilən hadisələrin tarixi, siyasi planlarda təhlilinə səylər göstərilmişdir. Dissertasiya işi müxtəlif tarixi hadisələrin baş verdiyi mürəkkəb və uzun

bir dövrü əhatə etdiyinə görə, həmin hadisələrin daha çox siyasi təhlilinə yer ayrılmışdır.

**Tədqiqatın elmi yeniliyi:** Təqdim olunan əsər bəhs olunan mövzu üzrə Azərbaycan tarixşünaslığında ilk addımlardan biri hesab edilə bilər. Tədqiqatda bir çox hallarda faktiki olaraq ilk dəfə:

- Bakı Neft Sənayeçiləri Qurultayında struktur dəyişikliyinə səbəb olan 1889-cu ildə senz sisteminin və 1893-cü ildə neft rüsumunun tətbiq olunması tədbirləri müqayisəli şəkildə təhlil edilmişdir.
- Bakı Neft Sənayeçiləri Qurultayının məktəblərində və Bakı sənaye rayonunun digər məktəblərində təhsil alan azərbaycanlı şagirdlərin sayının az olmasına səbəb olan müxtəlif amillərin izahı verilmişdir.
- Bakı Neft Sənayeçiləri Qurultayının Bakı sənaye rayonunun səhiyyə sahəsindəki fəaliyyətinin fəhlələrin sağlamlığının mühafizə olunması baxımından vacib əhəmiyyətinin təhlili verilmişdir.
- Bakı sənaye rayonunun sanitariya sahəsində mövcud olan nöqsanlara görə daha çox hansı orqanların məsuliyyət daşımasının izahı verilmişdir.
- Fəhlə hərəkatının qarşısını almaq üçün çar hökumətinin əlində alət rolunu oynayan Bakı Neft Sənayeçiləri Qurultayının fəhlə siyasətinin müxtəlif aspektlərdən təhlili verilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin əsas müddəa və nəticələrindən:

- XIX əsrin sonları və XX əsrin əvvəllərində Bakı sənaye rayonunda fəaliyyət göstərən müxtəlif kampaniyalar arasında baş verən ixtilafların araşdırılmasında;
- Azərbaycan neft sənayesi tarixinin kompleks tədqiqində;
- XIX əsrin sonları və XX əsrin əvvəllərində Bakı sənaye rayonunda səhiyyənin, təhsilin və mədəniyyətin inkişafı tarixinə dair ümumiləşdirilmiş əsərlərin yazılmasında;
- Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni inkişafına dair dərs vəsaitlərinin hazırlanmasında;
- Ali məktəblərin müvafiq fakültələrində ixtisas kurslarının aparılmasında istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası:** Dissertasiya AMEA Tarix İnstitutunun "Azərbaycanın yeni tarixi" şöbəsində yerinə yetirilmişdir. Tədqi-

qatın əsas müddəaları Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi nəşrlərdə çap olunmuş məqalələrdə əksini tapmışdır.

**Dissertasiyanın quruluşu:** Dissertasiya girişdən, üç fəsildən, 6 yarımfəsildən, nəticədən və istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiyanın aktuallığı və xronoloji çərçivəsi əsaslandırılmış, problemin öyrənilmə dərəcəsi geniş şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji məsələləri, mənbə bazası, elmi yeniliyi və təcrübi əhəmiyyəti sistemli şəkildə təhlil edilmiş, aprobasiyası və quruluşu göstərilmişdir.

Dissertasiyanın **«Bakı Neft Sənayeçiləri Qurultayının yaranması»** adlanan **birinci fəsli** iki yarımfəsildən ibarətdir. **«1870-1880-ci illərin əvvəllərində Bakıda neft sənayesinin inkişafı»** adlı birinci yarımfəsildə iltizam sisteminin ləğv olunmasından sonra Bakıda neft sənayesinin inkişafı nəzərdən keçirilmiş, Bakı Neft Sənayeçiləri Qurultayının yaranmasını şərtləndirən amillər tədqiq edilmiş, eləcə də Bakıda neft sənayesinin inkişafı ilə əlaqədar xarici kapitalın Bakı neft rayonuna axınının təsviri verilmişdir.

XIX əsrin 80-ci illərinin əvvəlində neftin hasilatı, emalı və daşınması işində yeni texnikanın tətbiq olunması neft sənayesinin sürətli inkişafına səbəb olmuşdu. Bakı neft rayonunda neft sənayesinin yüksək inkişafının nəticəsi idi ki, Rusiyadan kənara daşınan neft və neft məhsullarının əsas ixracat mənbəyini Bakı nefti təşkil edirdi. Yerli neft sənayesi sahibkarları ilə yanaşı olaraq, xarici kapital nümayəndələrinin də Bakı şəhərində fəaliyyətə başlaması, yaxın gələcəkdə neft hasilatı uğrunda rəqabətin artmasından xəbər verirdi. Bu amil neft sənayesi sahibkarları arasında neftin hasilatı, emalı və daşınması ölçülərinə görə qruplaşmaların yaranmasına gətirib çıxaracaqdı.

**«Bakı Neft Sənayeçiləri Qurultayının yaranması, strukturu və tərkibi»** adlanan ikinci yarımfəsildə Bakı Neft Sənayeçiləri Qurultayının müvəkkillik fəaliyyətinin siyasi məqsədləri təhlil

edilmişdir. 1884-cü il fevralın 3-də Bakı neft sənayeçiləri qurultaylarının çağırılmasına dair Əsasnamənin çar tərəfindən təsdiq olunmasına müvafiq olaraq sahə sahibkarlıq təşkilatı strukturuna malik olan Bakı Neft Sənayeçiləri Qurultayı yaranmışdı. Bakı Neft Sənayeçiləri Qurultayının 1884-cü ilin oktyabr-noyabr aylarında keçirilən I qurultayında onun icraçı orqanı olan qurultay Şurası təsis olunmuşdu.[1] Bakı neft sənayeçilərinin 1885-ci ilin mart-aprel aylarında keçirilən II qurultayında qurultay Şurasının tərkibinə seçilən 24 nəfər neft sənayeçisindən 16-ı azərbaycanlı idi.[2]

1884 və 1885-ci illərdə keçirilən ilk iki qurultaylarda hələ senz məhdudiyyəti tətbiq olunmadığından, iri neft sənayeçiləri ilə bərabər olaraq, xırda və orta neft sənayeçiləri də bütün məsələlərin müzakirə olunaraq həll olunması prosesində fəal surətdə iştirak edirdilər.[3] Bu da belə bir nəticə çıxarmağa imkan verir ki, ilk vaxtlarda bütün firmaların qurultaylardakı çəkisi eyni olduğundan, qurultay Şurasında təmsil olunan neft sənayeçiləri arasında azərbaycanlıların sayı çox olmuşdur.

Bakı neft sənayeçilərinin 1889-cu ilin aprel ayında keçirilən V qurultayında iri firma nümayəndələrinin təzyiqi ilə qurultaylarda senz sistemi tətbiq olunmuşdu. Senz sisteminə görə, qurultaylarda firma nümayəndələrinin topladığı səslər neftin hasilatı, emalı və daşınmasının ölçülərinə görə hesablanırdı. Beləliklə, Bakı Neft Sənayeçiləri Qurultayı neft sənayesi burjuaziyasının, xüsusilə onun inhisarçı yuxarı təbəqəsinin təşkilati cəhətdən birləşməsi və dövlət aparatı ilə əlaqə yaratması üçün mühüm vasitə olmuşdu.[4]

Bakı neft sənayeçilərinin 1890-cı ildə keçirilən VII və 1892-ci ildə keçirilən VIII qurultaylarında neft sənayeçilərinin təşəbbüsləri

---

[1] Труды первого съезда нефтепромышленников в гор. Баку (с 26-го октября по 8-е ноября 1884 года). Баку: Типография – Скоропечатная В.Неручева, 1885, с.1; «Нефтяное дело», 1909, 31 октября, №20, с. 1.

[2] Труды второго съезда нефтепромышленников в гор. Баку (с 15-го марта по 9-е апреля 1885 года). Отдел I и II. Тифлис: Типография Я.И. Либермана, 1887, с. 86-89.

[3] Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, с. 43.

[4] Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: Elm, 2000, с. 213-214.

sayəsində 1893-cü il mayın 1-dən etibarən məcburi vergi sistemi qüvvəyə minmiş və neft sənayeçilərindən neftin hər puduna görə 1/20 qəpik məbləğində neft rüsumunun toplanılmasına başlanılmışdı. 1897-ci ildə neft rüsumunun məbləği hər puda görə 1/10 qəpiyə, 1900-cü ildə isə 1/5 qəpiyə qədər qaldırılmışdı.[1]

Neft rüsumunun tətbiq olunması ilə Bakı Neft Sənayeçiləri Qurultayı inzibati-təsərrüfat sahəsinə də diqqət ayırmağa başlamışdı. Artıq qurultay Şurasının fəaliyyət dairəsinə yolların çəkilməsi, xəstəxana və məktəblərin təşkil olunması, mədənlərin qurudulması və işıqlandırılması və digər təsərrüfat işləri də daxil olmuşdu.[2]

Bakı neft sənayeçilərinin 1906-cı ilin fevral ayında keçirilən XXI fövqəladə qurultayında 44 nəfərə qarşı 633 nəfərin səs çoxluğu ilə neft rüsumunun hər puda görə 1/5 qəpikdən 1/2 qəpiyə qədər qaldırılması barədə qərar qəbul olunmuşdu. Qurultay Şurasının külli miqdarda borca məruz qalması və bununla əlaqədar olaraq bankların kredit verməkdən imtina etməsi, 1905-ci ildə baş verən azərbaycanlı-erməni toqquşmalarının qurultay Şurasının fəaliyyətinə mənfi təsir göstərməsi, mədən-zavod rayonunda yeni polis ştatlarının təsis olunması kimi amillər Qurultayı bu addımı atmağa məcbur etmişdi.[3]

Beləliklə, Bakı neft sənayeçiləri qurultaylarında senz sisteminin və neft rüsumunun tətbiq olunması tədbirləri Bakı Neft Sənayeçiləri Qurultayının struktur dəyişikliyinə məruz qalmasına gətirib çıxarmışdır. Əgər birinci tədbirin həyata keçirilməsi Bakı neft sənayeçiləri qurultaylarında bütün imtiyazların iri neft sənayeçilərinin sə-

---

[1] Реорганизация деятельности Совета съезда нефтепромышленников // Труды XXVI экстренного съезда нефтепромышленников в гор. Баку (23-26 июня 1908 года). Баку: Типография Первого Типографского Товарищество, 1908, с. 2, 6.

[2] Старцев Г.Е. Бакинская нефтяная промышленность. Историко-статистический очерк. Баку: Типография «Арор», 1901, с. 78.

[3] Труды XXI-го экстренного съезда нефтепромыщленников в гор. Баку (с 17 по 21 февраля 1906 года). Баку: Типография Первого Типографского Товарищество, 1906, с. 10-11; Труды XXVIII очередного съезда нефтепромышленников в гор. Баку (с 30-го ноября по 16-е декабря 1909 года). Том II. Баку: Типографии Первого Типографск. Т-во и «Труд» Берладира, 1910, с. 17.

rəncamına keçməsinə şərait yaratmışdısa, ikincisi Qurultayın fəaliyyət dairəsinin genişlənməsinə səbəb olmuşdur. Bakı neft sənayeçiləri qurultaylarında senz sisteminin tətbiq olunması xırda və orta firmaların mövqeyinin zəifləməsi ilə nəticələnmişdir. Senz sistemi qaydalarında hansı dəyişikliklərin baş verməsindən asılı olmayaraq Bakı Neft Sənayeçiləri Qurultayının bütün fəaliyyət dövrü ərzində iri firmalar qurultaylarda istənilən qərarların qəbul olunmasına nail olmuşdular.

Dissertasiyanın **«Bakı Neft Sənayeçiləri Qurultayının səhiyyə sahəsində fəaliyyəti»** adlanan **ikinci fəsli** iki yarımfəsildən ibarətdir. **«Bakı Neft Sənayeçiləri Qurultayının neft sənayesi fəhlələrinə tibbi-sanitariya yardımı»** adlanan birinci yarımfəsildə mədən-zavod rayonu fəhlələrinin və onların uşaqlarının sağlamlığının mühafizə olunması məsələsi araşdırılmışdır.

Bəhs olunan dövrdə Bakı Neft Sənayeçiləri Qurultayının nəhəng mədən-zavod rayonunda neft sənayesi fəhlələrinə demək olar ki, təkbaşına surətdə tibbi-sanitariya yardımı göstərməsi təqdirəlayiq hal hesab olunmalıdır. Onun bu sahədəki fəaliyyətində nə qədər çatışmazlıqlar olsa belə, fəhlələrin sağlamlığının mühafizə olunması baxımından böyük əhəmiyyətə malik idi. Təsadüfi deyil ki, Qurultayın neft sənayesi fəhlələrinin tibbi-sanitariya nöqteyi-nəzərdən qayğısına qalması öz ölçülərinə görə hətta Bakı şəhər idarəsinin tibbi-sanitariya sahəsindəki fəaliyyətini də ötüb keçmişdi.

**«Bakı Neft Sənayeçiləri Qurultayının Bakı sənaye rayonunun sanitariya sahəsində fəaliyyəti»** adlanan ikinci yarımfəsildə Qurultayın sanitar təşkilatlarının mədən-zavod rayonunda antisanitariya şəraitinə qarşı apardığı mübarizə tədbirləri təhlil edilir.

Tədqiqat zamanı məlum olmuşdur ki, Bakı Neft Sənayeçiləri Qurultayının büdcə xərclərindən təsərrüfatın digər sahələrinə nisbətən sanitariya sahəsinə olduqca cüzi vəsait sərf olunmuşdu. Polisin saxlanılmasına külli miqdarda vəsait sərf edən qurultay Şurası, mədənlərin abadlaşdırılması istiqamətində çox cüzi işlər görmüşdü.

Məsələn, 1907-ci ildə qurultay Şurası polis mühafizəsinin saxlanılmasına büdcə xərclərinin 27,5%-ni sərf etmişdi. Bu rəqəm Qurultayın bütün büdcə xərclərinin ¼-dən də artıq idi. Halbuki həmin il sanitariya tədbirləri sahəsinə cəmi 11.070 rubl məbləğ ayrılmışdır ki,

bu da Qurultayın bütün büdcə xərclərinin yalnız 0,4 %-ni təşkil edirdi.[1]

Bakı Neft Sənayeçiləri Qurultayının neft sənayesi fəhlələrinə tibbi-sanitariya yardımının göstərilməsi sahəsindəki fəaliyyəti nisbətən qənaətbəxş olsa da, Bakı sənaye rayonunun sanitariya sahəsindəki fəaliyyəti barədə eyni sözləri demək olmaz. Məlum olduğu kimi, hökumətin polis sistemi tərəfindən də qurultay Şurasının sanitariya təşkilatına bu sahədə heç bir kömək göstərilmirdi. Polis sistemi daha çox fəhlə hərəkatının qarşısını almaqda çar hökumətinin mahir ifaçısı idi. Beləliklə, nəhəng mədən-zavod rayonunda heç bir dayaqdan istifadə etməyən Qurultay, antisanitariya şəraitinin aradan qaldırılmasında aciz idi. Əgər Qurultayın bu sahədəki fəaliyyəti olmazdısa (yəni əslində bu, onun funksiyalarına daxil deyildi), o zaman mədən-zavod rayonunun sanitariya şəraiti baxımından daha da bərbad hala düşə biləcəyini təsəvvürə gətirmək çətin deyil.

Dissertasiyanın **«Bakı Neft Sənayeçiləri Qurultayının mədəni-maarif sahəsində fəaliyyəti»** adlanan **üçüncü fəsli** iki yarımfəsildən ibarətdir. **«Bakı Neft Sənayeçiləri Qurultayının təhsil sahəsində fəaliyyəti»** adlanan birinci yarımfəsildə mədən-zavod rayonu fəhlələrinin və onların uşaqlarının ibtidai təhsilə olan tələbatlarının Bakı Neft Sənayeçiləri Qurultayı tərəfindən ödənilməsi məsələsi araşdırılmışdır.

1897-ci ildə qurultay Şurasının vəsaiti hesabına ilk 2 məktəb – Sabunçu və Bibiheybət məktəbləri, 1898-ci ildə isə Qaraşəhər məktəbi açılmışdı. 1899-cu ilin əvvəlində isə Ramanada 104 şagird tutumu üçün nəzərdə tutulan daha bir məktəb fəaliyyətə başlamışdı. 1900-cü ildə Qurultayın Ağşəhərdə 70 nəfər şagird heyətindən ibarət olan yeni bir məktəbi istifadəyə verilmişdi.[2]

---

[1] Земство на Кавказе и бакинский нефтепромышленный район // «Нефтяное дело», 1909, 14 февраля, №3, с. 3; Смета расходов съезда нефтепромышленников на 1907 г., утвержден. XXIII съездом нефтепромышленников // Труды XXIII очередного съезда нефтепромышленников в гор. Баку (с 27 ноября по 16 декабря 1906 года). Том I. Баку: Типографии 1-го Тип. Т-ва и «Труд», 1907, с. 25, 63.

[2] Таирзаде Н.А. Из истории Азербайджанской интеллигенции. Баку: «Адилоглы», 2009, s. 284; Краткий обзор деятельности Съезда Бакинских неф-

1904-cü ildə Qurultayın təhsil sahəsi üzrə fəaliyyətinin daha bir əlamətdar hadisəsi Zabrat məktəbinin açılması olmuşdur.[1] I və II Ramana məktəblərində siniflərin şagirdlərlə həddindən artıq dolması bu məktəbin açılmasına səbəb olmuşdur.[2] 1904-cü ilin oktyabr ayında yeni dərs ilinin başlanması ilə əlaqədar olaraq Qurultay məktəblərində təhsil alan şagirdlərin sayı 1690-a qədər artmışdı ki, onların da 1193-ü ruslardan (71 %), 58-i isə (3,4 %) azərbaycanlılardan ibarət idilər. Azərbaycanlı şagirdlərdən yalnız 1 nəfər zavod rayonundakı Ağşəhər məktəbində təhsil alırdı.[3]

1910-cu il oktyabrın 15-də qurultay Şurasının birsinifli III Sabunçu məktəbinin əsası qoyulmuşdu.[4] Məktəb Balaxanı mədən xəstəxanasının ərazisində açılmışdı. Bu məktəbin açılmasına təsir göstərən daha bir amil ondan ibarət idi ki, Ramana məktəblərində (I və II Zabrat – P.X.) yerləşən siniflərdən biri təhsilin tələblərinə cavab vermədiyi üçün bağlanılmış və kənarda qalan uşaqların yeni açılmış III Sabunçu məktəbində yerləşdirilməsi nəzərdə tutulmuşdu. Bu məqsədlə III Sabunçu məktəbində yeni bölmələr də açılmışdı.[5]

Qurultay məktəblərində 5 Azərbaycan bölməsinin açılması nəzərdə tutulsa da, 1906/1907-ci tədris ilində yalnız Bibiheybət

---

тепромышленников по народному образованию за время с 1897 по 1912 г. Баку, Типография «Труженик» А.А.Куинджи, 1913, с. 5; Мурадалиева Э.Б. Кровь земная – нефть Азербайджана и история. Баку: Mütərcim, 2005, с. 52.

[1] Отчет о деятельности Совета съезда, XXII очередному съезду нефтепромышленников. Отдел II. Хозяйственная деятельность Совета. Баку: Типография Первого Типографского Товарищество, 1906, s. 1.

[2] Краткий обзор деятельности Съезда Бакинских нефтепромышленников по народному образованию за время с 1897 по 1912 г. Баку, Типография «Труженик» А.А.Куинджи, 1913, с. 7.

[3] Отчет о деятельности Совета съезда, XXII очередному съезду нефтепромышленников. Отдел II. Хозяйственная деятельность Совета. Баку: Типография Первого Типографского Товарищество, 1906, s. 2-5.

[4] ARDTA, f. 309, s. 1, iş 885, v. 11.

[5] Народное образование (приложение к отчету о деятельности Совета съезда, XXX съезду нефтепромышленников). Баку: Типография «Труд» С.Г.Берладира, 1911, с. 1.

məktəbində cəmi 1 Azərbaycan bölməsi açılmışdı.[1] Buna baxmayaraq, 1907/1908-ci tədris ilində Qurultay məktəblərində fəaliyyət göstərən Azərbaycan bölmələrinin sayı artırılmışdı. Azərbaycan bölmələrinin 2-i Bibiheybət, 1-i II Zabrat, 1-i isə II Sabunçu məktəbində yerləşirdi. Bölmələr üçün rəsmi tərtib olunmuş proqram olmadığından, 13 yanvar 1881-ci il Əsasnaməsinə müvafiq olaraq rus-Azərbaycan məktəblərinin I bölmələrinin proqramlarından istifadə olunurdu.[2]

Yerli dilləri bilən müəllimlərin tələb olunan sayda olmaması səbəbindən 1910-cu ildə qurultay Şurası məktəblərində "yerli" bölmələr bağlanmış və onlar rus dilini bilməyən "yerlilərin" hazırlıq şöbələrinə çevrilmişdi.[3] 1911/1912-ci tədris ilində Qurultay məktəblərində 4 hazırlıq şöbələrindən 1-i müsəlman hazırlıq şöbəsi idi. Bu tədris ilində Balaxanı mədən xəstəxanasının nəzdində fəaliyyət göstərən III Sabunçu məktəbi yeni binaya köçmüş və beləliklə, Balaxanı məktəbinin açılması baş vermişdi.[4]

Beləliklə, məlum olur ki, Bakı Neft Sənayeçiləri Qurultayının təhsil sahəsində göstərdiyi fəaliyyətin məqsədi əsasən mədən-zavod rayonu fəhlələri uşaqlarının ibtidai təhsilə yiyələnmələrinin qayğısına qalmaqdan ibarət olmuşdur. Bundan başqa fəhlələr üçün axşam kurslarının açılmasını da qeyd etmək lazımdır. Qurultay bunlarla kifayətlənməyib, digər təşkilatlar tərəfindən açılan maarif müəssisələrinin saxlanılması üçün ianələrin ayrılması işini də həyata keçirmişdir. Qurultay təşkilatı bəzi istisnalar olmaqla mədən-zavod rayonu ərazisin-

---

[1] Народное образование. Народные развлечении. Столовые съезда (приложение к отчету о хозяйственной деятельности Совета съезда XXV съезду нефтепромышленников). Баку: Типография Первого Типографского Товарищество, 1907, s. 8.

[2] Народное образование. Народные развлечении. Столовые съезда (приложение к отчету о хозяйственной деятельности Совета съезда XXVII съезду нефтепромышленников). Баку: Типография Первого Типографского Товарищество, с. 31-32.

[3] Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900 – 27 aprel 1920). Bakı: Elm, 2001, s.196.

[4] Народное образование (приложение к отчету о деятельности Совета съезда XXXI съезду нефтепромышленников). Баку: Типография «Труженик» А.А.Куинджи, 1912, с. 26-27.

də ibtidai təhsil çərçivəsindən kənara çıxa bilməmişdir. Çar hökumətinin ucqarlarda tətbiq etdiyi milli-müstəmləkəçilik siyasətinə uyğun olaraq məktəblərdə tədris işi əsasən rus dilində aparılmışdı. Yerli dillərdə fəaliyyət göstərən bölmələrin işi isə yalnız qısa zaman kəsiyini əhatə etmişdi.

**«Bakı Neft Sənayeçiləri Qurultayının mədəniyyət sahəsində fəaliyyəti»** adlanan ikinci yarımfəsildə mədən-zavod rayonu fəhlələrinin və onların uşaqlarının asudə vaxtlarının səmərəli surətdə təşkil olunması istiqamətində Qurultayın həyata keçirdiyi tədbirlərdən bəhs olunur.

1903-cü ildə Qurultayın Qaraşəhər və Balaxanı auditoriyalarının nəzdində kütləvi kitabxana-qiraətxanalar açılmışdı.[1] Pulsuz kitabxanalar tezliklə əhali arasında böyük rol oynamağa başlamışdı. Kitablara təkcə savadlı fəhlələrin deyil, eyni zamanda, mədən-zavod rayonunda yerləşən axşam kursları və bazargünü məktəbləri dinləyicilərinin də ehtiyacları var idi.[2]

Bakı Neft Sənayeçiləri Qurultayının digər bir kitabxanası, XX əsrin əvvəllərində Sabunçu xəstəxanası (Qurultayın Balaxanı mədən xəstəxanası – P.X.) nəzdində təşkil olunan pulsuz kitabxana idi. Bu kitabxana xəstələrə, xəstəxana qulluqçularına və texniki işçilərə xidmət göstərmək məqsədilə təşkil olunduğundan, ilk vaxtlar onun fəaliyyət dairəsi xəstəxana daxilindən kənara çıxmırdı. Lakin kitab fondunun ildən-ilə zənginləşməsi və Ramanada yerləşən Balaxanı kitabxanasının Sabunçu rayonunun mərkəzindən uzaq məsafədə yerləşməsi, bu kitabxananın fəaliyyət dairəsini genişləndirib ictimai kitabxanaya çevrilməsini tələb edirdi.[3]

Qurultay Şurasının yuxarıda göstərilən kitabxanalarından əlavə, onun xalq evlərinin nəzdində də kitabxana-qiraətxanaları fəaliyyət göstərmişdi. 1906-cı ildə Bayıl xalq evi kitabxana-qiraətxanasına

---

[1] Краткий обзор деятельности Съезда Бакинских нефтепромышленников по народному образованию за время с 1897 по 1912 г. Баку, Типография «Труженик» А.А.Куинджи, 1913, с. 127.

[2] Таирзаде Н.А. Из истории Азербайджанской интеллигенции. Баку: «Адилоглы», 2009, с. 333.

[3] Tağıyev H.N. Azərbaycanda kitabxanaçılıq işi (XII əsrdən – 1920-ci ilə qədər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, c. 80.

1140 nəfər baş çəkmişdir ki, onların da 1120-ni kişilər, 20-ni isə qadınlar təşkil edirdilər. Baş çəkənlərin əksəriyyəti ustalardan ibarət idilər. Həmin il oxucuların sayı 262 nəfərə bərabər olmuşdur.[1]

Bakı Neft Sənayeçiləri Qurultayının şəhər kontoru yanında da bir əsaslı kitabxanası var idi. Kitabxananın fəaliyyət göstərdiyi bina çox darısqal vəziyyətdə olduğundan, onun yanında qiraətxana təşkil olunmamışdı. Kitabxana yalnız qurultay Şurasının qulluqçularına xidmət göstərmişdir.[2]

Bakı neft sənayeçilərinin 1901-1902-ci illərin dekabr-yanvar aylarında keçirilən XVI qurultayının qəbul etdiyi qərara müvafiq olaraq 1902-ci ildə qurultay Şurası tərəfindən "Bakı rayonunun fəhlə və qulluqçuları üçün xalq evlərinin və xalq əyləncələrinin təşkil olunması üzrə komitə" təşkil olunmuşdu. Komitənin ilk iclasında Qaraşəhər və Balaxanı komitələri təşkil olunmuşdur ki, onlar da bilavasitə olaraq baş komitəyə tabe olmuşdular. Baş komitə xalq əyləncələrinin təşkil olunmasına dair tədbirlər planının hazırlanması işi ilə məşğul olurdu.[3]

1907-ci ildə Qaraşəhər xalq evində 39 tamaşa təşkil olunmuşdur ki, onların da 15-i rus dilində, 4-ü isə Azərbaycan dilində olan tamaşalar idi. Rus dilində təşkil olunan tamaşalara 5504 nəfər (hər tamaşaya orta hesabla 367 nəfər), Azərbaycan dilində oynanılan tamaşalara isə 641 nəfər (hər tamaşaya orta hesabla 160 nəfər) baş çəkmişdir. Azərbaycan dilində səhnəyə qoyulan tamaşalar "Nicat" müsəlman xeyriyyə cəmiyyətinin dram bölməsi tərəfindən oynanılırdı. Azərbaycan dilində göstərilən tamaşalar - "Tamahkarlıq", "Zamanın qəhrəmanları", "Müsibəti-Fəxrəddin" və "Yağışdan çıxıb yağmura düşdük" tamaşaları idi.[4]

---

[1] «Каспий», 1907, 5 апреля, № 77.

[2] Tağıyev H.N. Azərbaycanda kitabxanaçılıq işi (XII əsrdən – 1920-ci ilə qədər). Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, s.76.

[3] Труды XVIII очередного съезда нефтепромышленников в гор. Баку (с 5-го по 22-е декабря 1903 года). Том II. Баку: Типография 1-го Типографского Товарищество, 1904, с. 389-390.

[4] Народное образование. Народные развлечении. Столовые съезда (приложение к отчету о хозяйственной деятельности Совета съезда XXVII съезду нефтепромышленников). Баку: Типография Первого Типографского Товарищество, 1908, с. 45-47.

1907-ci ildə Bayıl rayonunda 43 tamaşa səhnəyə qoyulmuşdur ki, onların da 13-ü rus, 5-i isə Azərbaycan dilində göstərilmişdir. Azərbaycan dilində oynanılan tamaşalar - "Zamanın qəhrəmanı", "Daldan atılan daş", "Müsibəti-Fəxrəddin" və "Dağılan tifaq" tamaşaları idi ("Müsibəti- Fəxrəddin" tamaşası iki dəfə səhnəyə qoyulmuşdu). Bundan başqa Bayıl xalq evində 18 tamaşa yenidən səhnəyə qoyulmuşdur.[1]

Artıq 1910/1911-ci tədris ilində qurultay Şurasının xalq evlərinin fəaliyyət göstərməməsini belə bir fakt da təsdiq edir ki, Bakı fəhlələrinin yaydığı 27 fevral 1910-cu il tarixli vərəqədə onlar xalq evlərinin olmamasını və mühazirələrin oxunulmamasını göstərmişdilər.[2]

Qurultay Şurasının yalnız xalq evləri tərəfindən təşkil olunan tədbirlər bəzi istisnalar olmaqla 1910-cu ilə qədər fəaliyyət göstərmiş, digər mədəni tədbirləri isə sonrakı illərdə də təşkil olunmaqda davam etdirilmişdir. Bunu bir tərəfdən onunla əlaqələndirmək olar ki, mədən-zavod rayonu təkcə Bakı Neft Sənayeçiləri Qurultayının ümidinə qaldığından və hökumət tərəfindən fəhlə qəsəbələrinin tikilməsi məsələsinin həll olunmaması səbəbindən göstərilən məsələ öz həllini tapmamışdı. Digər tərəfdən isə belə bir fakt da var ki, Qurultay əsasən öz dayağı hesab etdiyi sahələrin (məsələn, hərbi polisin saxlanılması və sairə) saxlanılmasına büdcə xərclərindən daha çox vəsait ayırırdı. Əgər nəzərə alsaq ki, bəzi sahələrdə olduğu kimi, xalq evlərinin təşkil olunması sahəsində də həyata keçirilən tədbirlər Qurultayın funksiyalarına və vəzifələrinə daxil deyildi, o zaman məlum olur ki, bu məsuliyyət əsasən çar hökumətinin üzərinə düşür.

Dissertasiya işinin **"Nəticə"** hissəsində elmi araşdırmalara yekun vurulmuş və əldə edilmiş mühüm nəticələr qeyd edilmişdir.

---

[1] Народное образование. Народные развлечении. Столовые съезда (приложение к отчету о хозяйственной деятельности Совета съезда XXVII съезду нефтепромышленников). Баку: Типография Первого Типографского Товарищество, 1908, с. 48-49.

[2] ARPİİSSA, f. 276, s. 1, iş 165, v. 1.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. XIX əsrin sonlarında "Bakı neft sənayeçiləri qurultayı"nın səhiyyə sahəsində fəaliyyətinə dair // Azərbaycan MEA akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi Araşdırmalar"ı, № I–IV (VIII buraxılış), 2006-cı il. s. 429–433.
2. About cultural-enlightener activity of "Baku oil industry workers congress" in the late XIX century // Azerbaijan & Azerbaijanis. 2008, №5-8. s. 229–238.
3. 1900-1905-ci İllərdə "Bakı neft sənayeçiləri qurultayı"nın mədəni-maarif sahəsində fəaliyyətinə dair // "Tarix və onun problemləri" № 4, 2009-cu il. s. 82-90.
4. XIX əsrin sonlarında "Bakı neft sənayeçiləri qurultayı"nın kitabxana işinin təşkil olunması sahəsində fəaliyyətinə dair // "Müasir informasiya məkanı və kitabxanalar" Respublika elmi konfransının tezis və məruzələri, Bakı, 2010, s. 36–38.
5. XIX əsrin sonlarında "Bakı neft sənayeçiləri qurultayı"nın kitabxana işinin təşkili sahəsində fəaliyyətinə dair // "Müasir informasiya məkanı və kitabxanalar" Ümumrespublika elmi-praktiki konfransının materialları (Bakı, 5 may 2010-cu il), Bakı, 2010, s. 145-150.
6. XIX əsrin sonlarında "Bakı neft sənayeçiləri qurultayı"nın strukturuna dair // "Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 1, 2010-cu il. s. 128-134.
7. XIX əsrin sonlarında "Bakı neft sənayeçiləri qurultayı"nın neft sənayesi fəhlələrinə tibbi-sanitariya yardımına dair" // "Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 1, 2011-ci il. s. 230-235.
8. Bakı neft sənayeçiləri qurultaylarında senz məsələsinə dair // "Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 3, 2012-ci il. s.163–170.
9. "Bakı neft sənayeçiləri qurultayı"na dair (1900-1905-ci illər) // Azərbaycan MEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Elmi Araşdırmalar"ı, IX buraxılış, 2012-ci il. s. 372–376.
10. Деятельность «Съезда Бакинских нефтепромышленников» в сфере образования в конце XIX в. // «Кавказ и Мир», Международный научный журнал, 2013, № 16, с. 58-61.

11. Bakı Neft Sənayeçiləri Qurultayının fəhlə təhsili sahəsində fəaliyyətinə dair (XIX əsrin sonu – XX əsrin əvvəlləri) // "XIX əsrin əvvəllərində Qafqaz müharibələri və onların nəticələri" mövzusunda beynəlxalq elmi konfransın xüsusi buraxılışı. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun "Elmi Əsərlər"i, 2013-cü il. 44, 45, 46, 47-ci cild, s.384-387.

12. XX əsrin əvvəllərində Bakı Neft Sənayeçiləri qurultaylarında fəhlə məsələsinə dair // "Bakı Universitetinin Xəbərləri", Humanitar elmlər seriyası, № 4, 2013-cü il. s. 122-127.

13. Bakı Neft Sənayeçiləri Qurultayı təşkilatının kitabxanaların və xalq əyləncələrinin təşkili sahəsində fəaliyyətinə dair (XIX əsrin sonları – XX əsrin əvvəli // Bakı Qızlar Universitetinin "Elmi Əsərlər"i, № 1, 2015-ci il. s. 155-160.

**P.R.Khalilov**

# ACTIVITY OF THE CONGRESS OF BAKU OIL INDUSTRIALISTS IN THE FIELD OF THE PUBLIC HEALTH AND CULTURAL EDUCATION

## SUMMARY

In the dissertation for the first time in Azerbaijani historiography on the base of the research of archival materials, periodicals of pre-October revolution, documents of the Council of the Congress, scientific literature have been comprehensively examined the questions of health protection of living and working in Baku oil region workers and their children by the Congress of Baku oil industrialists, providing children with an elementary education as well as organization for them various type of entertainment.

The dissertation consists of the introduction, three chapters, conclusion and bibliography. In the introduction of the dissertation substantiated urgency of the theme, study degree, chronological frames, source base, goal and objectives, scientific novelty, theoretical and practical importance of the research.

In the first chapter of the dissertation titled “Establishment of the Congress of Baku Oil Industrialists” is given description of the factors, contributing formation of the Congress, refers to the establishment of the Council of the Congress after the formation of the organization which was its executive body, specified nationalities of the oil industrialists operating in the Congress, given attention to the study of changes taking place in the structure of the Congress during the period of its activity.

In the second chapter entitled "Activity of the Congress of Baku oil industrialists in the field of the health care" is narrated about providing medical and sanitary care by the medical facilities of the Congress to the workers and their children living in Baku oil region, petition of the Congress of the Council to an appropriate government authorities on the construction industrial communities, question of insurance for workers, measures of the Congress of the Council against insanitary conditions in Baku oil region.

In the third chapter entitled "Activity of the Congress of Baku oil industrialists in the field of cultural education" refers to the providing the workers and their children with a primary education in the educational institutions of the Council of the Congress, staging various performances in folk houses for the workers of Baku oil region in order to ensure rational leisure, investigated the organization of various activities and entertainment for pupils in the schools of the Congress.

In the conclusion of the dissertation the results of the research have been summed up and the outcomes are generalized.

**П.Р.Халилов**

# ДЕЯТЕЛЬНОСТЬ СЪЕЗДА БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ В ОБЛАСТИ ЗДРАВООХРАНЕНИЯ, КУЛЬТУРЫ И ПРОСВЕЩЕНИЯ

## РЕЗЮМЕ

В диссертационной работе впервые в азербайджанской историографии на основе архивных документов, периодической печати дооктябрьского периода и научной литературы комплексно исследована деятельность Совета Съезда Бакинских Нефтепромышленников в сфере охраны здоровья рабочих, проживавших и работавших в Бакинском промышленном районе; получения ими начального образования и организации их досуга.

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность и научная значимость проблемы, определена степень новизны, показаны цели и задачи исследования, проанализированы источники, дан историографический обзор.

В первой главе – «Образование Съезда Бакинских Нефтепромышленников» - исследуются факторы, обусловившие создание организации бакинских нефтепромышленников – Съезда; учреждение его исполнительного органа Совета съезда; изменения, происходившие в структуре организации на всем протяжении его существования, а также приводится национальный состав нефтепромышленников, участвовавших в работе Совета съезда.

Во второй главе под названием «Деятельность Съезда Бакинских Нефтепромышленников в области здравоохранения» говорится об оказании медико-санитарной помощи рабочим Бакинского промышленного района и их детям со стороны медицинских учреждений Совета съезда; ходатайстве Совета съезда перед соответствующими государственными органами по поводу устройства рабочих поселков; страховании рабочих и мероприятиях санитарных служб Совета съезда по борьбе с антисанитарией в Бакинском промышленном районе.

В третьей главе, носящей название «Деятельность Съезда Бакинских Нефтепромышленников в области культуры и просвещения», рассматриваются вопросы получения начального образования рабочими и их детьми в учебных заведениях Совета съезда; организации различных мероприятий и развлечений для учащихся школ Съезда и роли народных домов Съезда в организации досуга рабочих.

В заключении сформулированы основные выводы и сделаны обобщения, вытекающие из настоящего исследования.

Formatı: 60x84 $^{1}/_{16}$. F.ç.v. 2.
Tiraj 100 nüsxə.

---

Turxan Nəşriyyat-Poliqrafiya Birliyi

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

*На правах рукописи*

**ПОЛАД РАСУЛ оглы ХАЛИЛОВ**

# ДЕЯТЕЛЬНОСТЬ СЪЕЗДА БАКИНСКИХ НЕФТЕПРОМЫШЛЕННИКОВ В ОБЛАСТИ ЗДРАВООХРАНЕНИЯ, КУЛЬТУРЫ И ПРОСВЕЩЕНИЯ

Специальность: 5503.02 – Отечественная история

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ – 2015**